# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 39 (1439), 22 - 28 oktyabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.


F.Ə.Qarayevin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Faiq Əli oğlu Qarayev 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 oktyabr 2019-cu il.*



## "Pakistan Azərbaycanın idman təcrübəsindən yararlanmaq istəyir"

Bu sözləri ölkəmizdə səfərdə olan və Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimovla görüşən Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Federal naziri xanım Fehmida Mirza Ni deyib.

Qonağı səmimi qəlbdən salamlayan nazir Azad Rəhimov, Pakistanın 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk 3 dövlətdən birincisi olduğunu və hər iki ölkənin illərə sığınan dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf etdiyini diqqətə çatdırdı.

(ardı 2-ci səhifədə)




## Azərbaycan nümayəndə heyəti MOKA-nın Baş Assambleyasında iştirak edib

Qətərin paytaxtı Dohada Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Baş Assambleyası keçirilib.

İclasda Azərbaycanı Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, qurumun baş katibinin müavini Azər Əliyev və marketinq idarəsinin rəisi Mehman Kərimov təmsil ediblər.

Assambleya çərçivəsində MOKA-nın audit və maliyyə, marketinq, atletlər, beynəlxalq əlaqələr və tibbi komissiyalarının iclasları keçirilib, məruzələr dinlənilib. Tədbirdə həmçinin Gənclər Komissiyasının və İcraiyyə Şurasının, sonda isə Olimpiya Həmrəyliyi Komissiyasının iclasları keçirilib.

Xatırladaq ki, Doha oktyabrın 12-16-da birinci Dünya Çimərlik Oyunlarına ev sahibliyi edib. Bu Oyunlarda Azərbaycan 7 idmançı ilə təmsil olunub. Çimərlik güləşi yarışlarında Pənah İlyaslı (70 kq) və İbrahim Yusubov (80 kq) gümüş medala sahib olublar. Akuatlon yarışlarında isə Kseniya Levkovskaya ikinci, Rostislav Pevtsov isə üçüncü yeri tutublar. Millimiz qarışıq komanda yarışlarında da ikinci pillədə qərarlaşıb.

## Avropa kubokunda uğurlu çıxış

Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Portuqaliyanın Funşal şəhərində təşkil olunan sprint üzrə Avropa kuboku finalında qızıl medal qazanıb. Təmsilçimiz 58 idmançının mübarizə apardığı yarışı 52 dəqiqəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 8 dəqiqə 57 saniyəyə qət edib. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 27 dəqiqə 9 saniyəyə başa vurub. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını təmsilçimiz 14 dəqiqə 56 saniyə nəticə ilə tamamlayıb.

Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 1 saat 2 dəqiqə 47 saniyəlik nəticə ilə 10-cu olub.

Qeyd edək ki, idmançılarımız Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün təsnifat turnirlərində iştirak edirlər. Onlar dünya və Avropa çempionatları, dünya və qitə kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.




## Olimpizm

### KİV nümayəndələri Tokioda idman obyektləri ilə tanış olublar

Kütləvi İnformasiya Vasitələrinin təmsilçiləri press-brifinq çərçivəsində Tokioda 2020-ci il Olimpiya Oyunlarının keçiriləcəyi bir sıra idman obyektlərini ziyarət ediblər. Arenaların bir hissəsi artıq atletlərin qəbuluna hazırdır, lakin bəziləri daha çox inşaat meydançalarını xatırladır. Bununla belə Tokio-2020-nin Təşkilat Komitəsinin əməkdaşları dördilliyin əsas yay multiidman forumuna hazırlığın plan üzrə getdiyini və bütün işlərin təyin olunduğu müddətdək başa çatacağını bildirirlər.

Əsasən, 2020-ci il Oyunları çərçivəsində ilkin turnirin keçiriləcəyi "Ariake" tennis mərkəzində kortların quraşdırılmasına yalnız noyabrda başlanılacaq və gələn ilin martınadək başa çatacaq.

"Ariake Colosseum" əsas arenası bu mövsümdə hətta test turnirini də qəbul edib. 10 min tamaşaçı üçün nəzərdə tutulan meydançanın başlıca xüsusiyyəti açılıb-bağlanan dam örtüyüdür. Bu örtük tennisçilərə qızmar günəş şüalarından qorunmağa imkan verəcək.

Tokio Su İdmanı Növləri Mərkəzi və hələ 1964-cü il Olimpiya Oyunları üçün tikilən Yoyogi Milli İdman Zalında inşaatçılar durmadan çalışırlar. Təşkilat Komitəsinin nümayəndələrinin sözlərinə görə, 2017-ci ilin aprelində tikintisinə başlanılan Olimpiya hovuzu gələn ilin yazında başa çatacaq. Belə uzun müddətin sərf olunması isə aparılan işlərin mürəkkəbliyi ilə izah edilir.

Yoyoga Mərkəzinə gəlincə, növbəti il ən güclü həndbolçuların müəyyən ediləcəyi bu zal artıq yarışları qəbul etməyə hazırdır. Lakin mediamərkəzlərdən birinin yerləşdiriləcəyi ikinci arena isə Olimpiya Oyunlarının startına yalnız bir ay qalmış təhvil veriləcək.

### Dopinq sövdələşməsinə görə cinayət məsuliyyəti barədə qanun layihəsi bəyənilib

ABŞ Konqresinin Nümayəndələr Palatasının Hüquq Komitəsi yeni qanun layihəsini yekdilliklə bəyənib. Sənədə əsasən, iri idman yarışlarında üstünlük əldə etmək üçün dopinqdən və digər qadağan olunmuş maddələrdən istifadə məqsədilə cinayətkar sövdələşmələrdə iştirak edən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması nəzərdə tutulur. Ümumdünya Antidopinq Agentliyinin (WADA) baş informatoru Qriqoqi Rodçenkovun "şərəfinə" bu sənədə "Rodçenkovun antidopinq aktı" (The Rodchenkov Anti-Doping Act) adı verilib. Analoji qanun layihəsinə Senatın müvafiq komitəsində də baxılır.

Bu təşəbbüs "qadağan olunmuş maddələrin və metodların tətbiq edilməsi yolu ilə ən iri beynəlxalq idman yarışlarına təsir göstərmək məqsədilə insanların pul gücünə ələ gətirilməsində iştirak etməyə görə cinayət məsuliyyəti tətbiq olunması", "belə sövdələşmələrin qurbanlarına vurulmuş ziyanın ödənilməsi", həmçinin "informatorların onlara qarşı cavab tədbirlərindən müdafiə olunması" nəzərdə tutulur. Qanun layihəsinin qüvvəyə minməsi üçün indi ona Nümayəndələr Palatası tərəfindən tam heyətdə baxılmalıdır.

2016-cı ilin yanvar ayından ABŞ-da olan Rodçenkov Rusiyada iki cinayət işi üzrə - səlahiyyətlərindən sui-istifadə etməkdə və güclü təsirə malik və ya zəhərli maddələrin satış məqsədilə qeyri-qanuni dövriyyəsində ittiham edilir. Məhkəmə bu işlər üzrə cəza tədbiri kimi Rodçenkovun barəsində qiyabi həbs tədbiri seçib.

## Hərbçilərin VII Dünya Oyunları davam edir

Çinin Uxan şəhərində Hərbçilərin VII Dünya Oyunları keçirilir. Mötəbər yarışda Azərbaycanın cüdo üzrə milli komandasının üzvləri də iştirak edirlər. Oktyabrın 20-də cüdoçularımız Hidayət Heydərov (81 kq) və Məmmədəli Mehdiyev (90 kq) uğurla çıxış edərək yarışın bürünc medallarına layiq görülüblər.

Qeyd edək ki, komandamıza ilk bürünc medalı Hidayət Heydərovun qazandırdığı Hərbçilərin Dünya Oyunlarının cüdo yarışlarında Olimpiya və dünya çempionları da mübarizə aparırlar.

## Badmintonçumuz beynəlxalq turnirin qızıl medalına layiq görüldü

Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Misirin paytaxtı Qahirədə keçirilən "Egypt International 2019" beynəlxalq turnirində qızıl medal qazanıb. Azərbaycan Badminton Federasiyasından verilən məlumata görə, Dviçayo finalda çexiyalı Milan Ludiki 2:0 hesabı ilə məğlub edərək turnirin qalibi olub. Qeyd edək ki, badmintonçumuz E.Dviçayo Azərbaycan idman tarixində ilk dəfə Olimpiya Oyunlarına lisenziya qazana bilər.

**UEFA Avropa Liqası** **(III tur)**

## "Qarabağ" - APOEL

(Azərbaycan) (Kipr)

*24 oktyabr. "Tofiq Bəhramov" adına Respublika Stadionu. Saat 20:55.*

Spartakiada



*Oktyabrın 18-də "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının "Dövlət Müstəqilliyi Günü"nə həsr olunmuş XXI Respublika Spartakiadasının açılış mərasimi keçirilib.*

## "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin XXI Respublika Spartakiadasının açılış mərasimi keçirilib



Milli Aviasiya Akademiyasının mini futbol meydançasında keçirilən tədbirdə Azərbaycan Həmkarlar ittifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyev, Milli Aviasiya Akademiyası Həmkarlar Komitəsinin sədri Qalib Süleymanov, Milli Aviasiya Akademiyasının ictimaiyyətlə əlaqə üzrə prorektoru Şəmsəddin Axundov, "Zenit" Bədən Tərbiyəsi və İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov və idman ictimaiyyətinin digər nümayəndələri iştirak edib.

Açılış mərasimində çıxış edən Qalib Süleymanov spartakiadanın əhəmiyyətindən danışaraq, bu kimi tədbirlərin zəhmətkeşlərin



sağlamlığının möhkəmləndirilməsində, həmçinin onların asudə vaxtlarının səmərəli təşkilində böyük rol oynadığını vurğulayıb.

Milli Aviasiya Akademiyasının prorektoru Şəmsəddin Axundov qonaqları Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edərək, onlara bu əlamətdar gün haqqında məlumat verib. Ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan danışan Ş.Axundov dövlətimizin müstəqillik qazanması ilə bağlı xalqımızın keçdiyi şərəfli yoldan danışaraq, bildirib ki, idman və Olimpiya Hərəkatının inkişafına və kütləviləşməsinə dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir.

O, XXI dəfə təşkil olunan spartakiadanın da uğurla təşkil olunacağına əminliyini ifadə edib.

"Zenit" Bədən Tərbiyəsi və İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov tədbir iştirakçılarını salamlayaraq spartakiada haqqında məlumat verib. O, 10 idman növü üzrə keçirilən spartakiadanın ölkəmizdə idmanın, bədən tərbiyəsi və Olimpiya Hərəkatının inkişafında, kütləviliyin artmasında böyük rolu olduğunu qeyd edib. Fazil Hadıbəyov spartakiadanın təşkilində göstərdiyi köməkliyə və dəstəyə görə Milli Aviasiya Akademiyasının rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, oktyabrın 11-də start götürən spartakiada 10 idman növü üzrə (futbol, voleybol, daşqaldırma, kəndirdartma, stolüstü tennis, üzgüçülük, dama, nərd, şahmat, güllə atıcılığı) keçirilir.

"Xalqın mənəvi və fiziki sağlamlığı uğrunda" devizi altında keçirilən yarışlarda "Zenit" Bədən Tərbiyəsi İC İB-in xidmət sahəsinə daxil olan müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçular iştirak edirlər.

Spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçularının asudə vaxtını səmərəli keçirməkdən ibarətdir.

Spartakiadanın açılış mərasimindən sonra futbol yarışlarının final görüşləri keçirilib. Gərgin mübarizə şəraitində keçən yarışda Aviasiya İşçiləri Həmkarlar Komitəsi RK-nın komandası birinci yeri tutub. Metropoliten İşçiləri HK-ın komandası ikinci, Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri Azərbaycan Həmkarlar İttifaqı RK-nın komandası isə üçüncü olub. Qaliblər diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

XXI Respublika Spartkiadasına noyabrın 22-də yekun vurulacaq.

## "Pakistan Azərbaycanın idman təcrübəsindən yararlanmaq istəyir"

*(əvvəli 1-ci səhifədə)*

Nazir Azad Rəhimov qeyd etdi ki, imzalanacaq Anlaşma Memorandumu iki ölkənin idman sahəsində inkişafına çox böyük dəstək verəcək.

Eyni zamanda, qeyd olundu ki, ölkəmizdə səfərdə olduğu müddətdə qonaq Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutu, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli Gimnastika Arenası, Su idmanı Sarayı və digər idman qurğularında da olmaqla, Azərbaycanın idman infrastrukturu haqda daha geniş məlumat əldə edə biləcək.

Gənclər sahəsi haqqında da qonağa məlumat verən Azad Rəhimov, Gənclər və İdman Nazirliyi tərəfindən uzun müddətdir ki, müxtəlif ölkələrdə gerçəkləşdirilən "Mən Azərbaycan haqqında nə bilirəm?" esse müsabiqəsində Pakistan gənclərinin də fəal iştirak etdiklərini və qaliblərin dəfələrlə Azərbacyana səfər etdiklərini diqqətə çatdırdı.

Azərbaycana qonaqpərvərliyi üçün xüsusi təşəkkürünü bildirən Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Federal naziri xanım Fehmida Mirza Ni Azərbaycanın idman sahəsində çox inkişaf etdiyini və Pakistanın Azərbaycan təcrübəsindən yararlanmaqda xüsusi marağı olduğunu bildirdi. Fehmida Mirza Ni Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını çox böyük uğurla keçirdiyini və Pakistanın da bu səpkili yarışlara ev sahibliyi etməkdə maraqlı olduğunu söylədi. Qonaq bildirdi ki, idman diplomatiyası onun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Ölkəmizin idman sahəsində çox böyük təcrübəyə malik olduğunu söyləyən xanım Fehmida Mirza Ni idman diplomatiyasına Azərbaycanın da cəlb oluna biləcəyini və bununla da münasibətlərin yeni mərhələyə qədəm qoya biləcəyini vurğuladı.

Xanım Fehmida Mirza Ni Azərbaycan və Pakistan idmançılarının müxtəlif idman növlərində təlim məşq toplantılarına qatılmalarının idmanın inkişafında önəmli addım olduğunu bildirib, bu istiqamətdə də əməkdaşlığı genişləndirmənin vacibliyini diqqətə çatdırdı.

Azərbaycanın həddən ziyadə əsrarəngiz ölkə olduğunu və turizm potensialının da çox inkişaf etdiyini söyləyən qonaq, pakistanlıların son illərdə bu ölkəyə göstərdikləri böyük maraqdan da xüsusi söz açdı.

Daha sonra Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Nazirliyi arasında idman sahəsində Anlaşma Memorandumu imzalandı.

Sonda qonağa xatirə hədiyyələri təqdim olundu.

Yubiley

## Natalya Abdinova - 70

Abdinova (Şetinkina) Natalya İvanovna 1949-cu il oktyabrın 5-də Bakı şəhərində anadan olub. O, 1963-1971-ci illərdə İdman gimnastikası üzrə ümumittifaq və beynəlxalq yarışlarda ölkəmizin şərəfini qoruyub. Bu illər ərzində Natalya İvanovna dəfələrlə Azərbaycan çempionu olub. O, ümumittifaq və beynəlxalq yarışlarda uğurla çıxış edən gimnastlarımızdan biri olub. Belə ki, 1963-cü ildə Ümumittifaq "Dinamo" cəmiyyətinin keçirdiyi yarışlarda fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Kişinyovda təşkil olunan ümumittifaq məktəblilərinin spartakiadasında zona yarışlarının və "Dinamo" idman cəmiyyətinin ümumittifaq gənclər birinciliyində uğurlu çıxışı ilə diqqət çəkib. 1965-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) "Gənc dinamoçu" spartakiadasında çoxnövçülük yarışlarında bürünc, dayaqlı tullanmada isə gümüş mükafata layiq görülüb. Moskvada keçirilən qızların XXXIII SSRİ şəxsi komanda birinciliyində üçüncü olan gimnastımız, həmin ildə SSRİ idman ustası adına layiq görülüb.



1966-cı ildə Buxarestdə Sosialist ölkələrinin Dinamiadasında qızıl medal əldə edib. Həmin il Voronejdə keçirilən ümumittifaq gənclər arasında yarışda dayaqlı tullanmada bürünc medalla kifayətlənib. Həmin növ üzrə "Dinamo" İC-in Mərkəzi Şurasının yarışlarında da eyni nəticəni təkrarlayıb.

Natalya Abdinova kütləvi bədən tərbiyəsi və idmanda göstərdiyi nəticələrə görə dəfələrlə fəxri fərman və diplomlarla təltif edilib.

O, 1968-ci ildə Kiyevdə keçirilən "Dinamo" İC-in MS çempionatında üçüncü yeri tutub. Nataliya xanımın əldə etdiyi uğurlar bununla bitməyib. SSRİ çempionu müxtəlif yarışlarda ona bəslənilən etimadı layiqincə doğruldub.

Natalya Abdinova 1971-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutunu bitirdiyi ildən etibarən gimnastika kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləyib.

- 1985-ci ildə Gənclərin və Tələbələrin XII Ümumdünya Festivalının təntənəli açılış və bağlanış mərasimlərində fəal iştirakına görə SSRİ Nazirlər şurası yanında Bədən Tərbiyəsi və İdman komitəsinin fəxri fərmanı ilə təltif edilib.

- 1986-cı il Moskvada keçirilən "Xoş məramlı oyunların" təntənəli açılış mərasimində bədii idman bayramında fəal iştirakına görə Ümumittifaq həmkarlar KİT-nın fərmanı ilə mükafatlandırılıb.

- 1998-cu ildə ona Azərbaycan Respublikasının fəxri Bədən Tərbiyəsi və İdman işçisi adı verilib.

- 2001-ci ildə ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyinin fəxri fərmanı təqdim edilib.

- 2010-cu ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi adını alıb.

Natalya Abdinova AzDBTİA-da çalışdığı illərdə akademiyanın konfranslarında iştirak etmək üçün çoxlu sayda tələbələr hazırlayıb. O, uzun illərdir ki, kafedrada tədris işləri üzrə komissiyanın sədridir. Onun çap etdirdiyi tədris və metodiki tövsiyələrdən tələbələr və müəllimlər bu günə qədər istifadə edirlər.

N.Abdinova rus dilində buraxılan gimnastika fənni üzrə bütün proqramların müəllifidir.

O, bilikli, bacaraqlı müəllim kimi tələbələrin və müəllimlərin rəğbətini qazanıb.

Respublikamızda və akademiyada keçirilən elmi-praktiki konfranslarda aktual mövzularla çıxış edir.

Azərbaycan Gimnastika Federasiyası və veteranlar şurası Natalya Abdinovanı 70 illik yubleyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı, işlərində müvəffəqiyyət arzulayır.

## *Azərbaycanlı beynəlxalq dərəcəli hakim "Qızıl diplom"a layiq görüldü*

Kişi və qadın idman gimnastikası üzrə beynəlxalq dərəcəli hakim Rza Əliyev "Uzun müddətli fərqlənən hakimlik" fəaliyyətinə görə Beynəlxalq Gimnastika Federasiyası (FİG) tərəfindən təltif olunub.

Hakimimizə "qızıl diplom" Almaniyanın Ştutqart şəhərində keçirilən idman gimnastikası üzrə 49-cu dünya çempionatı çərçivəsində təqdim olunub.

Qeyd edək ki, bu diplom 16 il ərzində Olimpiya Oyunları, dünya çempionatı, Yeniyetmələrin Olimpiya Oyunları, Ümumdünya Oyunlarında qüsursuz fəaliyyətə görə verilir.

Xatırladaq ki, Rza Əliyev Azərbaycanın gimnastika tarixində ilk dəfə olaraq, kişi idman gimnastikası üzrə ən yüksək - 1-ci dərəcəli beynəlxalq hakimlik kateqoriyasına malikdir.

## Klassik bodibildinq və bodibildinq üzrə ölkə birinciliyi

Azərbaycan Bodibildinq və Fitnes Federasiyası növbəti yarışını keçirəcək. Oktyabrın 27-də bikini fitnes və mens fizik üzrə Azərbaycan kuboku, klassik bodibildinq və bodibildinq üzrə ölkə birinciliyi təşkil olunacaq. "Elektra Events Hall"da baş tutacaq yarışın mükafatçıları milli komandanın heyətinə cəlb olunacaqlar.

## Dünya birinciliyində 4 medal

Özbəkistanın Daşkənd şəhərində yeniyetmə və gənclər arasında sambo üzrə dünya birinciliyi keçirilib. Azərbaycan milli komandası mötəbər yarışda 4 medal qazanıb. Belə ki, Elvin Bağırov (56 kq), Kənan İsmayılov (60 kq), Hacıbala Cəbrayılov (70 kq) və Toğrul Salmanov (87 kq-dan yuxarı) fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

Müsahibə

# Vüqar Ziferoğlu:
# “Analitik jurnalistikanı bədii yaradıcılığa dəyişmərəm”

***Dahilərdən biri deyib ki, heç kim uğur pilləkənlarını əlləri cibində qalxmır. Yəni yüksək nəticələr qazanan hər bir şəxs zəhmət çəkir, müxtəlif əziyyətlərə qatlaşır. Bələlərindən biri də BDU-nun jurnalistika fakültəsinin dekanı, siyasi elmlər doktoru Vüqar Zifəroğludur. Bu günlərdə Vüqar müəllim ad gününü qeyd etdi. Biz onunla görüşüb, həmsöhbət olduq. Müsahibimiz suallarımızı ətraflı cavablandırdı.***

***- Vüqar müəllim, geridə qoyduğunuz illəri necə xatırlayırsınız?***

- Elə yaşdayam ki, böyük həyat təcrübəsinə əsaslanaraq bu haqda danışa bilmərəm. Ancaq hər halda müsbət xatirələrim daha çox olub, nəinki mənfi. Bir də ki, nə qədər yaşamaq deyil, necə yaşamaq vacibdir. Mənə elə gəlir ki, bu yaşıma kimi məzmunlu bir ömür yaşaya bilmişəm.

***- Ölkənin ən gənc dekanlarından biri, bəlkə də, birincisisiniz. İki il əvvəl bu vəzifə Sizə təklif olunanda ilk reaksiyanız necə olmuşdu?***

- Düzü, çox tərəddüd etmişdim. Uzun müddət düşündüm. Narahatlığımın bir neçə səbəbi var idi. Birincisi, Bakı Dövlət Universiteti kimi nüfuzlu bir ali təhsil müəssisəsinin cəmiyyətin ictimai-siyasi həyatı ilə sıx bağlı olan Jurnalistika fakültəsinə rəhbərlik etmək ikiqat məsuliyyətlidir. Həm də ki, fakültəmizin yaşlı nümayəndələrinə, vaxtı ilə mənə dərs deyən pedaqoqlara necə dekanlıq edəcəyimi düşünürdüm. Doğrusu, onlarla həmkar olmaq özü həyəcanverici və şərəflidir. Nəhayət, təklifi qəbul etdim və artıq iki ildir bu vəzifədə işləyirəm. Bu şərəfli işin öhdəsindən gəlməyə və etimadı doğrultmağa çalışıram.

***-Siz təkcə dekan kimi yox, həm də beynəlxalq jurnalist, siyasi analitik kimi kifayət qədər uğur qazanmısınız. Bu nailiyyətlərinizin sirri nədədir?***

- Mən 1996-cı ildən, yəni ikinci kursda təhsil aldığım zamandan mətbuatda fəal çıxış edirəm. Bir çox media orqanlarında müxbir, parlament müxbiri, redaktor vəzifələrində çalışmışam. Bakalavr və magistr təhsilimi Beynəlxalq jurnalistika ixtisası üzrə almışam. Beynəlxalq jurnalistikanın nəzəriyyəsini bilməklə yanaşı, həm də praktik şəkildə ixtisasım üzrə fəaliyyət göstərirəm. Eyni zamanda, ictimai fəaliyyətim var. “Oğuz” müstəqil tədqiqatçı qrupunun rəhbəriyəm. Bütün bunları deməkdə məqsədim odur ki, insanda gərək işə, öz peşəsinə həvəs olsun. Həvəs ilkin şərtdir. Bildiyimiz kimi, maarifləndirmə, məlumatlandırma jurnalistikanın əsas funksiyalarındandır. Amma bir məqamı nəzərdə saxlamaq lazımdır ki, jurnalist maarifləndirmək, məlumatlandırmaq üçün, əvvəl, özü oxumalı, baş verən hadisələrdən xəbərdar olmalıdır. Hər bir insan, o cümlədən də jurnalist özü özünün müəllimi olmalıdır. Həvəs və bilik uğurun açarıdır. Əks halda peşəkar olmaq mümkün deyil.

***- Jurnalistika fakültəsində 50 illik yubiley münasibətilə hansı işlər görüləcək?***

- Bu il həm də universitetimizin 100 yaşı tamam olur. Yəni belə demək mümkünsə, bayram bayrama qarışıb. İlk vəzifəmiz universitetin 100 illiyinə layiqli töhfələrimizi verməkdir. Lakin, əlbəttə, özümüzü də unuda bilmərik. Yarım əsrlik yubileyimiz münasibətilə müxtəlif məqalələr, kitablar hazırlayırıq. Xüsusilə qeyd etmək istərdim ki, bu işdə tələbələrimiz də çox fəaldır. Məsələn, onlardan biri fakültəmizin 50 illiyi münasibətilə kitab hazırlayır. Düşünürəm ki, bu, yaxşı təşəbbüsdür.

***- Tələbələrinizlə dekan, müəllim kimi yox, həmkar kimi rəftar edirsiniz...***

- Doğrudur. Məncə, müəllim və tələbə arasında münasibətlər saf, səmimi olmalıdır. Doğrudur, “qırmızı xətti” keçmək olmaz. Lakin nəzərə almaq lazımdır ki, əsl müəllimin işi təkcə auditoriyada dərs keçməklə məhdudlaşmır.

***- Əvvəlcə, jurnalistsiniz, yoxsa müəllim?***

- Öncə, jurnalistəm. Mən müəllimliyə də, dekanlığa da jurnalistikadan gəlmişəm. Həm peşəmi, həm də beynəlxalq jurnalistika üzrə ixtisaslaşdığım sahəni, yəni Yaxın Şərqi çox sevirəm. Etiraf etməliyəm ki, son iki ildə işlə əlaqədar yazdığım analitik yazıların sayı azalıb. Buna sadəcə təəssüflənirəm.



***- Jurnalistikaya olan sevginiz haradan qaynaqlanır?***

- Orta məktəb illərindən yazmağa, araşdırmağa həvəsim var idi. Mütəmadi olaraq yazılarım məktəb guşəsinə vurulurdu, inşa müsabiqələrinin qalibi olurdum. Qeyd edim ki, bizim həm uşaqlıq, həm də yeniyetməlik dövrümüz ölkədəki çox ağır ictimai-siyasi dövrə təsadüf etdi. Biz 20 Yanvar gecəsini öz gözümüzlə gördük, bizdən bir neçə sinif yuxarı oxuyan məktəb yoldaşlarımız şəhid oldular. Onların dəfnlərində iştirak etdik. Ümumiyyətlə, həmin illər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında ciddi əngəllər var idi. Mənim məhz ixtisas olaraq beynəlxalq jurnalistikanı seçməyimdə bu amillərin rolu çox böyük olub.

***- Bəs Yaxın Şərqə olan marağınız nə ilə bağlıdır?***

- Mən xarakter etibarilə adət-ənənələrə, milli kökə bağlıyam. Bildiyiniz kimi, Azərbaycan da Yaxın Şərqin bir hissəsidir, hətta mən deyərdim ki, qapısıdır. Bir tərəfdən mənəvi bağlılıq, digər tərəfdən bu bölgəyə olan marağım beynəlxalq jurnalist olaraq məhz bu region üzrə ixtisaslaşmağıma səbəb oldu.

***- Siz həm də bədii yaradıcılıqla məşğulsunuz.***

- Bir neçə kitabın müəllifiyəm. Onlardan cəmi biri - “Sirr” tarixi roman bədii janrdadır. Mənim uşaqlıqdan tarixə böyük həvəsim olub. Tarixi janrda yazılmış bədii romanların böyük əksəriyyətini oxumuşam. “Sirr”i yazmaqla mən də kiçik də olsa bir töhfə vermək istədim. 2009-cu ildə “Yəhudi-Xəzər yazışmaları” kitabı üzərində işlədiyim zaman xeyli maraqlı və yeni məlumatlar toplamışdım. Həm də elə o maraqlı tarixi məlumatlara əsaslanan bir bədii əsər yazmaq istədim. O zaman topladığım materiallar romanımın yazılması üçün əsas mənbə oldu. 2013-cü ildə isə bu romanı qələmə aldım və uğurlu alındı. Əsərin bütün tirajı satıldı. Müsbət rəylər aldım. Bütün oxuculara təşəkkür edirəm. Növbəti bədii əsəri yazıb- yazmayacağımı isə gələcək göstərəcək.

***- Həmin kitabda yazmısınız ki, həyatda hər şey bir sirr üzərində qurulub. Yəni mistikaya inanırsınız?***

- Mistika deməzdim. Lakin möcüzələrə inanıram. Həyat özü Yaradanın bizə bəxş etdiyi bir möcüzədir.

***- Ernest Heminquey, Qabriel Qarsia Markes, Cek London kimi dahi yazıçılar bədii ədəbiyyata jurnalistikadan gəliblər...***

- Düzdür. Lakin mən heç vaxt tamamilə bədii ədəbiyyata keçmək barədə düşünməmişəm və yəqin ki, düşünməyəcəm. Çünki bədii janrlarla analitika arasında böyük fərq var və mən xarakter etibarilə analitikaya daha yaxınam. Dediyim kimi, “Sirr” romanı uğurlu alındı. Yəqin ki, gələcəkdə daha bir maraqlı tarixi roman yazmaq olar. Amma heç vaxt analitik jurnalistikanı bədii yaradıcılığa dəyişmərəm.

***- Xüsusilə son illər sosial şəbəkələrin imkanları klassik mediadan önə keçir. Bu barədə nə düşünürsünüz?***

- Bu, çox geniş mövzudur. Ekspertlər müxtəlif fikirlər səsləndirirlər. Mənə elə gəlir ki, əgər sosial şəbəkələrin imkanlarından düzgün istifadə edə bilsək, bu, heç bir halda jurnalistikanın inkişafına mane olmaz, əksinə, vətəndaş jurnalistikasının inkişafına təkan verər. Həm də, zaman dəyişir. Media yenilənir, öz siması dəyişir. Yeni janrlar, yeni media formatlar yaranır. Zamanla ayaqlaşmaq lazımdır.

***- Siz də “Facebook”un fəal istifadəçilərindənsiniz. Son statuslarınızın birində yazmışdınız ki, həyat bir oyundur, kimi qazanır, kimsə məğlub olur. Sizcə, həyatda qələbə qazanmaq üçün nə etmək lazımdır?***

- Udmağı düşünmək lazım deyil. Mənə görə həyatın bir qanunu var: əgər ancaq udmağı düşünsən, uduzacaqsan. Ümumiyyətlə, qalib gəlməyə yox, ömrü mənalı yaşamağa çalışmaq lazımdır. Unutmaq lazım deyil ki, həyat bir sınaq meydanıdır. İnsanın ən ali məqsədi bu sınaqdan alnıaçıq, üzüağ çıxmaqdır.

***- Mütəxəssisi olduğunuz PR (ictimai əlaqələr) sahəsinin əsas qanunlardan biri budur ki, nəyi təqdim etmək yox, necə təqdim etmək daha vacibdir. Bu, həyatda da belədir?***

- Bəli. Mən həmişə tələbələrimə də deyirəm ki, PR texnologiyalarından təkcə peşəkar fəaliyyətdə yox, həm də gündəlik həyatda, ətrafdakı insanlarla uğurlu münasibətlərin qurulmasında istifadə etmək olar. PR texnologiyalarına bələd olmaq və həyatda tətbiq etmək insana ancaq kömək edə bilər.

***- Onda belə çıxır ki, Siz ən azı 1:0 irəlidəsiniz...***

- Belə demək olarsa ... (gülür).

***- Bu yaşdan sonra hansı uğurları hədəf seçmisiniz?***

- Tanrıdan arzulayıram ki, indi mənimlə birlikdə ad günümü qeyd edən əzizlərim növbəti yaşlarda da həmişə yanımda olsunlar.

***- Səmimi cavablar üçün çox sağ olun, əziz müəllim.***

- Mən Sizə təşəkkür edirəm. Tələbəmiz olaraq “Olimpiya dünyası” qəzetində işləyirsiniz. Bir neçə il mənim üçün doğma olan bu qəzetin redaksiyasında mən də çalışmışam. Bu kollektivdə kifayət qədər istedadlı jurnalistlər fəaliyyət göstərir. Fürsətdən istifadə edib qəzetin rəhbərliyinə və kollektivə öz minnətdarlığımı bildirirəm.

*Kənan Novruzov*

---

## *Azərbaycan Universal Döyüş Federasiyasına yeni vitse-prezident təyin edilib*

Oktyabrın 14-də Azərbaycan Universal Döyüş Federasiyasının (AUDF) İcraiyyə Komitəsinin iclası keçirilib. İcraiyyə Komitəsinin qərarı ilə Samir Əhmədov federasiyanın yeni vitse-prezidenti vəzifəsinə təyin edilib. Samir Əhmədov həmçinin AUDF-un İcraiyyə Komitəsinə də üzv seçilib. Yeni vitse-prezident federasiyanın kollektivinə təqdim edən Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov yeni işində ona uğurlar arzulayıb. O, ölkəmizdə adıçəkilən idman növünün inkişafı istiqamətində görülən işlərdən danışaraq, bu sahədə əldə olunan nailiyyətlər barədə məlumat verib. Federasiya prezidenti qeyd edib ki, bu ilin sonunda universal döyüşçülərimizi məsul bir yarış-dünya çempionatı gözləyir. Komandanın mötəbər yarışa ciddi hazırlaşdığını deyən Azər müəllim dünya çempionatında yüksək nəticələrin əldə olunacağına inandığını qeyd edib. Ona bəslənilən etimada görə təşəkkürünü bildirən yeni vitse-prezident universal döyüş idman növünün inkişafı, kütləviləşməsi, bu sahədə nailiyyətlərin daha da artması istiqamətində əlindən gələni əsirgəməyəcəyini diqqətə çatdırıb. Samir Əhmədov bildirib ki, qarşısında dayanan əsas vəzifə regionlarda bu idman növünün təbliğ və inkişaf etdirilməsi, məşqçilərlə işin düzgün təşkili, yeniyetmə və gənclərin bu sahəyə cəlb olunaraq yüksək nəticələr qazanmalarına nail olmaqdır.



---

## Stolüstü tennisçimiz Avropanın istedadları siyahısında

Avropa Stolüstü Tennis Birliyinin (ASTB) təşkilatçılığı ilə “ETTU Eurotalents” adlı istedadların axtarışı proqramının seçmə turu keçirilib. 11 yaşlı tennisçimiz Adil Əhmədzadə Avropa istedadları siyahısında ilk onluğa daxil olub. ASTB tərəfindən il boyu təşkil olunan təlim-məşq toplantılarında Avropanın 13 yaşadək tennisçiləri bir neçə istiqamətdə öz güclərini sınayıblar. Aralarından daha dözümlü, çevik və istedadlılar seçilərək ASTB-nin “Eurotalents U-13” turnirində güclərini sınayıblar. On dörd Avropa ölkəsindən 37 idmançı arasında ən yüksək nəticə göstərən 11 yaşlı həmyerlimiz A.Əhmədzadə yekun mərhələyə vəsiqə qazanaraq, yaxşıların-yaxşısı adı uğrunda mübarizəyə qoşulub. A.Əhmədzadə Avstriya, İngiltərə, Çexiya və Ruminiyadan olan rəqiblərini arxada qoyaraq yeddinci yerdə qərarlaşıb. Bununla da, stolüstü tennisçimiz Azərbaycan stolüstü tennis tarixində ilk dəfə Avropanın 13 yaşadək istedadları siyahısına daxil edilib.

# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü




(əvvəli qəzetimizin 37-ci sayında)

***OCEP - Olympic Culture and Education Programme - Olimpiya mədəniyyəti və təhsili proqramıdır. Azərbaycan Milli Olimpiya Komitəsinin təşkil etdiyi bu proqram Beynəlxalq və Avropa Olimpiya Komitələri tərəfindən bəyənilmiş və onun Avropa Gənclər Olimpiya Festivalı ərəfəsində və dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqram üzrə işlər 2018-ci ildən başlanmış, 2019-cu ilin iyulunda tamamlanmışdır. Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri Cəmaləddin Rəhmanovun MOK-un marketinq idarəsinin müdiri Mehman Kərimovla söhbətində proqramın təşkili, irsi və gələcəkdə Olimpiya Hərəkatı çərçivəsində davam etdirilməsi, beynəlxalq status alma potensialı haqqında maraqlı məqamlara toxunulmuşdur.***






**Cəmaləddin Rəhmanov (Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri):** - Mehman müəllim, ötən söhbətimizdə OCEP proqramı üzrə Azərbaycan məktəblərində ardıcıl olaraq tədbirlərin təşkili və reallaşdırılmasından söhbət açmışdıq və məlum oldu ki, belə tədbirlər 49 məktəbdə müəyyən qrafik üzrə təşkil olunub. Təbii ki, məktəbdə tədbir keçiriləndə həmin təhsil ocağı fəaliyyətini dayandırmayıb. Yəni proqram daim dinamik və yüksələn xətt üzrə inkişaf əsasında qurulduğuna görə, hər hansı məktəbin oyunlaraqədərki dövrdə işi yalnız bir tədbir təşkil etməklə məhdudlaşmamışdır. Xarici məktəblərlə əlaqə, ünsiyyət, feysbuk və şəbəkədə fəallıq, qardaşlaşmış məktəblərin Olimpiya təhsili məsələləri, Azərbaycanın digər məktəblərində keçirilən tədbirləri izləmə, bilikləri artırma, nəhayət, Atletlər Kəndində qurulacaq Olimpiya mədəniyyət və təhsil pavilyonu üçün eksponatların, eləcə də pavilyondakı gələcək fəaliyyətin təşkili diqqət mərkəzində olmuşdur. Bu da daha gərgin əmək tələb edirdi. Hər bir kompleks proqramın himayəçiləri, sponsorları, tərəfdaşları, təşkil edənləri, iştirakçıları olur. Bura şübhəsiz ki, bir qrupu da əlavə etmək lazım gəlir. Bu qrupu şərti olaraq tamaşaçılar adlandırırıq. Məsələn, belə hesab edirəm ki, OCEP-də tamaşaçılar qrupunun əsas hissəsi yarışlarda iştirak edən idmançılar, Avropa ölkələrindən Azərbaycana gələn nümayəndə heyətlərinin rəsmiləri, məşqçi və mütəxəssislər təşkil edəcəkdi. Təşəbbüsçülər, təşkilatçılar, tərəfdaşlar, iştirakçılar işlərini bu sonuncu qrup qarşısında nümayiş etdirir, onlara təqdim edir, onların qiymətləndirməsini gözləyirlər. Şübhəsiz ki, ayırdığımız beş fərqli qrupun hər birinin bu proqramdan müəyyən gözləntiləri, istəyi də olmalıdır. Əks-təqdirdə, bu iş, fəaliyyət əhəmiyyətini itirir. Başqa sözlə desək, sonda proqram hər bir qrup üçün müəyyən, yaxud konkret nəticələrlə tamamlanmalı, qrupların maraqları, gözləntiləri təmin olunmalı idi.

**Mehman Kərimov (Milli Olimpiya Komitəsinin marketinq idarəsinin müdiri):** Ayırdığınız qrupların maraqlarının təyin və təmin olunması layihənin yaradılması prosesindən başlayaraq sona qədər və ondan sonra da xüsusi əhəmiyyətə malikdir. Hesab edirəm ki, hər bir proqram və onun tərkib hissəsi olan tədbirlər bu maraqların üzərində qurulur. Deyək ki, Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya həmrəyliyi OCEP-ə maliyyə dəstəyi verərkən Olimpiya mədəniyyət və təhsilinin müəyyən kontingent daxilində reallaşdırılmasını, Olimpiya dəyərlərinin və prinsiplərinin tədrisi, təbliği və təşviqini özünün maraq dairəsi, gözləntiləri kimi ayırır, proqramın ekspertizası, perspektiv qiymətləndirməsini də buna istinadla aparır. İştirakçılar adlandırdığınız qrupa bir qədər fərqli aspektlərdən yanaşmalıyıq. Məsələn, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfdaş kimi işə qoşulursa, həm təşkilatçı, həm də iştirakçı statusu qazanır. Azərbaycanın 49 orta məktəbi bu tədbirə qatılırsa, həmin məktəblər də iştirakçı və təşkilatçılardır. Məktəblərin təşkilatçılıq fəaliyyəti genişdir. Bu fəaliyyət direktorları, müəllimləri və şagirdləri, həmçinin valideynlərin mühüm bir qismini əhatə edir, əsas işi bu kontingent görür. Əgər onlar üçün maraq amili olmazsa, proqram sırf inzibati səciyyə alacaq, onun yüksək səviyyədə təşkilinə can yandıran olmayacaq. Biz maraqları müxtəlif istiqamətlərdən dəyərləndirməyə çalışmışdıq. Əvvələ, təhsil müəssisəsinin fəaliyyətə cəlb olunması, proqramın özünün də təhsillə bağlılığı nazirliyin, məktəblərin və müəllimlərin marağını bu və ya digər dərəcədə təmin edir. Lakin bu marağın yalnız bu şəkildə təmin olunması ümumi mahiyyət daşıyır və rəqabətə əsaslanmır. Ona görə biz məktəblərin təşkil etdiyi tədbirləri başqa şəkildə qiymətləndirmək üçün bir yol, vasitə axtarıb tapmalı olduq. Ay ərzindən keçirilən tədbirlər əsasında ayın məktəbi nominasiyasını təyin etdik. Ekspertlər qrupu ay ərzində keçirilən məktəb tədbirlərinin hər birini müəyyən kriteriyalar üzrə dəyərləndirərək ayın məktəbini seçdi. Qalib məktəbin mükafatlandırılmasını təşkil etdik və bununla bağlı təqdimat keçirtdik. Sosial şəbəkədə, feysbukda, internet saytlarında və KİV-də bu məlumat yayımlandı. Şübhəsiz ki, ayın məktəbi olmaq məktəb rəhbərliyinin nazirlik qarşısında hesabatında, müəllimlərin isə məktəblərindəki işində müsbət bir hadisəyə çevrildi. Fevral ayından başlayaraq iyula kimi ardıcıl olaraq ayın məktəbi seçildi. Eyni zamanda biz hiss etdik ki, təkcə bu nominasiya üzrə qalib məktəbləri təyin etmək azdır. Elə olurdu ki, bir neçə məktəbin tədbiri diqqət və marağı cəlb edirdi. Lakin yalnız bir məktəb ayın məktəbi elan edilirdi.

**C.R.:** Səhv etmirəmsə, ekspertlərin eyni zamanda bir neçə məktəbi ayın məktəbi elan etməsi halı olub. Hər halda sosial şəbəkədə və saytlarda belə bir informasiya verilmişdi: "Milli Olimpiya Komitəsi və OCEP-in ekspertləri "Ayın məktəbi" müsabiqəsinin mart ayı üçün nəticələrini təqdim etmişdir. Göstərilən fəallıq, yüksək səviyyədə təşkil olunan tədbirlər və uğurlu əməkdaşlıq nəticəsində bir deyil, üç təhsil müəssisəsi eyni anda bu ada layiq görüldü. Həmin təhsil müəssisələri aşağıdakılardır: 1) 20 H-li məktəb-lisey; 2) 220 H-li məktəb-lisey; 3) Bakı Avropa Liseyi".

**M.K.:** Doğrudur. Ancaq sonra biz bu qərara gəldik ki, əlavə nominasiyalar təyin edək və daha bir neçə məktəbin işinin dəyərləndirilməsinə nail olaq. Beləliklə, "Ayın məktəbi" ilə yanaşı, "Ayın ən qonaqpərvər məktəbi", "Ayın ən təşəbbüskar məktəbi", "Ayın komanda məktəbi" və başqa nominasiyalar üzrə də fərqlənən məktəbləri müəyyənləşdirdik. Şagirdlərin proqramda iştirakla bağlı maraq dairəsini genişləndirmək üçün tədbirlərdə bu və ya başqa sahədə daha yaxşı bilik və bacarıq nümayiş etdirənlər haqqında sosial şəbəkədə, saytda, feysbukda məlumatların paylaşdırılmasından istifadə etdik. Təsəvvür edin ki, musiqidə istedadı olan şagird tədbirdə çıxış etməklə bütün məktəbdə tanınır, seçilənlərdən olurdu. Bu isə şagirdlərin öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün yeni imkanlar açır, onların OCEP işinə marağını artırır, daha fəal olmasına səbəb olurdu. Onu da qeyd edək ki, valideynlər də uşaqlarını dəstəkləməklə yanaşı həm də onların istedad və bacarıqlarını üzə çıxmasında maraqlı tərəf kimi çıxış edirdilər. Nəticədə keçirilən tədbirlər həm də valideynlərin gözləntilərinə cavab vermiş olurdu. Onu da qeyd edim ki, tədbirlərdə valideynlərin iştirakı məktəblərin fəaliyyət dairəsini xeyli genişləndirdi. Bəzi valideynlər Avropa ölkələrinin mətbəxinə aid yeməklərin hazırlanmasında şagirdlərə kömək edirdilər. Nəticədə bir sıra məktəblərdə başqa ölkələrin yeməklərinin hazırlanması dərsləri təşkil olundu ki, bu da mədəniyyətin təbliği üçün xüsusi önəm daşıdı. Pavilyonun təşkilinə qədər bu istiqamətdə işlər daha geniş vüsət aldı. Siz də pavilyonda çox oldunuz. Yəqin ki, orada bizim məktəblərimizin hər birinin güşəsində təhkim olunduqları ölkənin yeməklərinin təqdim edilməsinin şahidi olmusunuz.

**C.R.:** Pavilyonun təşkili, hesab edirəm ki, OCEP-in möhtəşəm və son dərəcə maraqlı proqram olduğunu təsdiq etdi. Yalnız milli mətbəx, deyil, ölkə mədəniyyətinin başqa sahələrinə aid eksponatlar bu pavilyona gələn xarici idmançıları çox məmnun edir, deyərdim ki, onları bir qədər də kövrəldirdi. Mən bunun dəfələrlə şahidi oldum. Ukrayna idmançılarının onların xalq mahnıları ifa olunanda rəqsə qoşulmasını xatırlayıram. Mən bu voleybolçu qızların sevinc göz yaşlarını gördüm.

Pavilyonun açılışına qədər bir sıra başqa tədbirlər də olmuşdur. Əvvəlcə bu barədə də bir qədər danışaq və sonra pavilyon təəssüratlarımızı bölüşərik.

**M.K.:** Təbii ki, tədbirlərimiz çox olmuşdur. İmkan daxilində OCEP-in daha geniş fəaliyyət göstərməsinə çalışır və bu məqsədlə bütün imkanlardan istifadə edirdik. Hesab edirəm ki, istifadə etdiyimiz belə imkanlardan biri də Bakıda "Formula 1" yarışları oldu. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi və Bakı Şəhər Təhsil İdarəsi, "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin dəstəyi ilə "Olimpiya mədəniyyəti və təhsil" proqramı Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin Əyləncə zonasında quraşdırılmış pavilyon vasitəsilə geniş ictimaiyyətə təqdim olundu. Dənizkənarı Milli Parkda quraşdırılmış pavilyonda Azərbaycan, Böyük Britaniya, Fransa, Norveç və İspaniya mədəniyyəti, tarixi, incəsənəti və idmanına aid olan nümunəvi musiqi, rəqs, səhnələşdirilmiş tamaşalar, əyləncəli oyunlar, müsabiqələr, əl işlərindən ibarət sərgi Formula 1-in beynəlxalq və yerli qonaqlarına təqdim olundu. Dörd gün ərzində fəaliyyət göstərən pavilyon Bakının 193, 132-134, 6, 20 nömrəli məktəblərinin, həmçinin Avropa liseyinin kollektivləri tərəfindən idarə olundu. Müxtəlif ölkələri təmsil edən bu təhsil müəssisələri Avropa Gənclərinin XV Olimpiya Festivalı zamanı fəaliyyət göstərəcək "Olimpiya mədəniyyəti və idman" pavilyonunda həyata keçiriləcək əsas fəaliyyət komponentlərini uğurla sınaqdan keçirə bildilər.

Biz OCEP haqqında məlumatların, eləcə də Olimpiya mədəniyyətinin və təhsilinin daha geniş yayılması məqsədilə bu proqram çərçivəsində məktəblilər arasında XV Avropa Gənclər Olimpiya Festivalına həsr olunmuş "İdman - sağlamlıq, dostluq, birlik" rəsm müsabiqəsi elan etmişdik. İyunun 14-də Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində həmin müsabiqəsinə yekun vurduq. Tədbirdə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, təhsil nazirinin müavini Firudin Qurbanov və digər rəsmi qonaqlar iştirak etdilər.

(ardı 5-ci səhifədə)

# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

(əvvəli 4-cü səhifədə)

Əvvəlcə tədbir iştirakçıları müsabiqəyə təqdim edilmiş rəsm əsərlərindən ibarət sərgiyə baxdılar. Sonra qaliblərin mükafatlandırma mərasimi keçirildi. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev və Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı, professor Ağəli İbrahimov çıxışlarında müsabiqəyə təqdim edilən əsərlərin təkcə münsiflər heyətinin deyil, həm də proqramın "Facebook" səhifəsi üzərindən geniş ictimaiyyət tərəfindən qiymətləndirilməsinin fərqli və maraqlı yenilik olduğunu qeyd etdilər. Belə yanaşma məktəblilərin əl işlərini daha geniş ictimaiyyətə çatdırmağa kömək etmişdi. Müsabiqəyə 45 məktəbdən 6-10 yaş kateqoriyasında 60 və 11-14 yaş kateqoriyasında 96 olmaqla, ümumilikdə 156 rəsm əsəri təqdim edilmişdi. Tədbirin sonunda müsabiqədə qalib gəlmiş 34 nəfərə (1-ci yer 6 nəfər, 2-ci yer 12 nəfər və 3-cü yer 16 nəfər) qiymətli hədiyyələr və diplomlar təqdim edildi.

OCEP çərçivəsində həyata keçirilmiş maraqlı tədbirlərimizdən birini də Minskdə reallaşdıra bildik. Məlumdur ki, bu ilin iyununda Minskdə II Avropa Oyunları keçirildi. Azərbaycan bu Oyunlarda böyük nümayəndə heyəti ilə iştirak etdi. 29 iyunda Azərbaycan və Belarus Milli Olimpiya Komitələrinin, eləcə də Avropa Olimpiya Komitələrinin nümayəndələri və digər qonaqlar Minsk şəhərinin 1H-li gimnaziyasını ziyarət etdilər. Ziyarətin əsas məqsədi Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində Azərbaycanı Belarusda təmsil edən gimnaziyanın şagirdlərini Avropa Oyunlarının çempionları ilə görüşdürmək, onları Olimpizm dəyərləri ilə tanış etmək idi. Qonaqlar sırasında MOK-un baş katibinin müavini Azər Əliyev, Belarus Milli Olimpiya Komitəsinin vitse-prezidenti Sergey Repkin, Azərbaycanın bu ölkədən səfiri Lətif Qəndilov və Avropa Olimpiya Komitələrinin nümayəndəsi Canluka de Angelis və başqaları vardı. Qeyd edək ki, 1H-li gimnaziya Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində Bakının 164 H-li məktəbi ilə qardaşlaşmışdı. Bu görüşdə biz Belarus məktəblilərinin OCEP çərçivəsindəki işi ilə tanış ola bildik. Görüş bir daha təsdiq



etdi ki, proqramda nəzərdə tutulan fəaliyyət, doğrudan da, böyük marağa səbəb olmuşdur. Hesab edirəm ki, bu görüşdən sonra iki məktəb arasında əlaqələr daha da genişləndi.

Minskdən qayıtdıqdan sonra əsas diqqətimizi Olimpiya Kəndində pavilyonun qurulmasına yönəltdik.

İdmançıların Azərbaycana gəlişindən və yarışların başlanmasından sonra Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Bakı-2019 Əməliyyat Komitəsinin dəstəyi ilə Olimpiya Mədəniyyəti və Təhsil Proqramının Atletlər kəndində "Olimpiya Mədəniyyəti və İdman Pavilyonu"nun açılış mərasimini keçirdik.

Bakı şəhərindən seçilmiş 49 təhsil müəssisəsi ilə birlikdə Atletlər Kəndində məskunlaşan 3600 nəfərdən artıq gənc idmançı, rəsmi nümayəndə və qonaqlara Azərbaycan da daxil olmaqla, bütün Avropa ölkələrinin mədəniyyəti, incəsənəti, tarixi və idmanını təqdim edən bir Pavilyon yarada bildik. Pavilyonun yaradılmasında qarşıya qoyulmuş əsas məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etmək idi. Biz Atletlər kəndində pavilyonun açılış




mərasimini keçirtdik. Mərasimdə Avropa Olimpiya Komitəsinin prezidenti Janiz Koçiançiç, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, MOK-un baş katibinin müavini Azər Əliyev, üzv ölkələrin Olimpiya Komitələrinin rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, müxtəlif ölkələrdən olan nümayəndə heyətləri iştirak etdilər.

Mərasimi MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə açdı. O, OCEP proqramının unikal idman və mədəniyyət hadisəsi olduğunu söylədi və onun yüksək səviyyədə həyata keçirildiyini qeyd etdi.

Gənclər və İdman naziri Azad Rəhimov Bakı 2019 Avropa Gənclər Olimpiya Festivalının kütləvi bədən tərbiyəsi və idmanın inkişafı baxımından Azərbaycan, eləcə də OCEP-in idman, təhsil və mədəniyyətin faydasından danışdı. Təhsil naziri Ceyhun Bayramov proqramın məktəblər və şagirdlər arasında dostluq körpüsü yaratmasından bəhs etdi. Nazir, bu layihənin məktəblilərdə sağlam həyat tərzinin formalaşmasında, idmanda kütləviliyin təmin olunmasında, ölkələr və mədəniyyətlər arası dostluq və istedadlı gənclərin üzə çıxarılmasında misilsiz rol oynadığını vurğuladı. Rəsmi hissədən sonra nümayəndələr, idmançılar və qonaqlar pavilyonla yaxından tanış oldular.

Pavilyon Atletlər kəndində 4 gün fəaliyyət göstərdi. Birinci iki gün Avropanın 24 və ikinci iki gündə digər 24 ölkəsinə həsr olunmuş güşələr yaradılmışdı Onu da qeyd edim ki, Azərbaycan guşəsi hər dörd gündə fəaliyyətdə oldu. Pavilyonun yanında xüsusi səhnə quraşdırılmışdı və bu səhnədə pavilyonda təqdim olunan ölkələrin mahnı və rəqsləri Azərbaycan məktəbliləri tərəfindən ifa olunurdu. Gün ərzində davam edən bu ifalar idmançıları pavilyona cəlb etməkdə öz rolunu oynadı. Demək olar ki, pavilyon bir an belə boşalmırdı. Bura rəsmi qonaqlar da tez-tez təşrif buyururdular. Sonuncu gün pavilyonun rəsmi bağlanış mərasimi oldu. Mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK baş katibinin müavini Azər Əliyev, üzv ölkələrin Milli Olimpiya komitələrinin rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, müxtəlif ölkələrdən olan qonaqlar iştirak etdilər.




**C.R.:** Mehman müəllim, pavilyon doğrudan da, 49 Avropa ölkəsinin mədəniyyətini və idmanını bir araya gətirə bildi. Azərbaycan Milli Olimpiya Komitəsinin ilk dəfə AYOF çərçivəsində hazırladığı bu proqram böyük əks-səda doğurdu. Pavilyonun necə maraq kəsb etməsini tədbirdən çəkilmiş şəkillərdə də aydın görmək olar.

Ona görə də hər bir guşə haqqında danışmağa, hesab edirəm ki, ehtiyac yoxdur. Yeri gəlmişkən onu da qeyd edim ki, pavilyonun yanında quraşdırılmış səhnədə nümayiş etdirilən incəsənət nümunələri, mahnı və rəqslər bu proqrama xüsusi rəng qatdı onu da ha da maraqlı, yaddaqalan etdi. Əminəm ki, ölkəmizə gəlmiş idmançılar, qonaqlar bu tədbiri həmişə xatırlayacaq və ola bilsin ki, belə tədbirlərin keçirilməsinə cəhd göstərəcəklər.

**M.K.:** Sözünüzün qüvvəti onu da deyim ki, pavilyonun fəaliyyət göstərdiyi 4 gün ərzində hər gün orada Yaponiyadan və Slovakiyadan olan dörd qonağı görmək olardı. Yaponiyadan gələnləri bu cür tədbirin 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarında təşkili məsələsi maraqlandırırdı. Slovakiyalı qonaqları isə eyni işin növbəti AYOF-da tətbiqi düşündürürdü. Qonaqlarımız proqramın əhəmiyyətini və vacibliyini dönə-dönə qeyd etdilər.

Mən bir az da əvvələ qayıtmaq istəyirəm. Proqrama marağın artırılması məsələsindən danışanda söhbətimiz başqa məcra aldı və bəzi məqamlar barədə fikrimi tamamlaya bilmədim. Proqramın məktəblər və onların şagirdləri üçün ən böyük hədiyyəsi vardı və bu barədə biz məktəblərə məlumat vermişdik. Yəni sonda qalib MOK tərəfindən xüsusi hədiyyə ilə mükafatlandırılacaqdı. Nəzərdə tutmuşduq ki, bir qalib məktəb seçib onun şagird və müəllimlərdən ibarət nümayəndə heyətini Yunanıstana - qədim Olimpiya ölkəsinə göndərək. Tədbir başa çatandan sonra münsiflər heyətinin qərarında üç məktəbə üstünlük verilirdi. Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə yalnız bir məktəbin mükafatlandırılmasının yetərli olmayacağını qənaətinə gəldi. O, MOK-un imkanları hesabına üç məktəbin nümayəndələrinin Yunanıstana göndərilməsinə qərar verdi.

Milli Olimpiya Komitəsində Azərbaycan idmançılarının Avropa Gənclər Olimpiya Festivalında əldə etdiyi nailiyyətlər münasibətilə "Zəfər Günləri" təşkil edildi. Silsilə xarakterli "Zəfər Günləri" mötəbər idman yarışlarında uğur qazanmış idmançıları, onların ailə üzvləri və dostlarını, həmçinin idman ictimaiyyəti və KİV nümayəndələrini bir araya gətirərək onlar arasında canlı ünsiyyət yaratmağa xidmət edirdi. Bu tədbirdə qalib gəlmiş idmançılar Milli Olimpiya Komitəsinə gələrək xüsusi hədiyyələr ilə təltif olunurdular. Qeyd edək ki, bu dəfəki tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Respublikası Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Respublikası Təhsil naziri Ceyhun Bayramov, MOK-un baş katibi Ağacan Abıyev, MOK-un baş katibinin müavini Azər Əliyev, Olimpiya çempionlarımız, tanınmış idmançılarımız iştirak etdilər. AYOF-2019-a həsr olunmuş "Zəfər günləri"ndə biz qalib gəlmiş məktəblərimizin adlarını elan etdik. Bu günlərdə qalib üç məktəbin nümayəndələri Yunanıstanın Olimpiya şəhərinə yola düşəcəklər. Onu da deyim ki, son olaraq bu üç məktəbin mükafatlandırılması da yetərli olmadı və MOK daha üç məktəbi Qəbələ raoyununa səfərlə mükafatlandırdı. Qaliblər Yunanıstana və Qəbələyə eyni gündə yola düşəcək və eyni gündə Bakıya qayıdacaqlar. Səfər zamanı bu məktəblər arasında internet vasitəsi ilə canlı əlaqə quracağıq ki, onlar elə səfər yerlərində bir-birləri ilə təəssüratlarını bölüşə bilsinlər.

**C.R.:** Mehman müəllim, belə hesab etmək olar ki, OCEP hələ də davam edir. OCEP proqramında bizə yaxından informasiya dəstəyi göstərmiş "Olimpiya dünyası" qəzetinə, onun baş redaktoru Murad Fərzəliyevə minnətdarlığımızı bildirirəm. Güman edirəm ki, qəzet Yunanıstandan və Qəbələdən qayıdacaq nümayəndə heyətləri ilə dəyirmi stol təşkil edəcək və bununla da OCEP proqramına bir növ yekun vura bilərik.

**M.K.:** Qaliblərimiz səfərdən qayıtdıqdan sonra MOK-da böyük mükafatlandırma tədbiri keçirməyi nəzərdə tutmuşuq. Hesab edirəm ki, OCEP-ə bu toplantı ilə yekun vuracağıq.



## Aikido Federasiyasının nümayəndəsi 2-ci Budo Festivalında iştirak edib

Rusiyanın paytaxtı Moskvada tanınmış Hollivud ulduzu və aikido üzrə yeddinci dan qara kəmər sahibi Stiven Siqalın rəhbərliyi ilə 2-ci Beynəlxalq Budo Festivalı keçirilib. Festivalda ABŞ, Rusiya, Belçika, Niderland, İtaliya, Finlandiya, Polşa, Qazaxıstan, Belarus və digər ölkələri təmsil edən aikido ustaları iştirak ediblər. Ölkəmizi festivalda Azərbaycan Aikido Federasiyasının nümayəndəsi, 1-ci dan qara kəmər sahibi Ramin Məmmədzadə təmsil edib. 3 gün davam edən festivalda iştirakçılara aikido idman növünün incəlikləri barədə məlumatlar verilib. Tədbirdə müxtəlif fəndlərin yerinə yetirilməsi barədə nəzəri və praktik tövsiyələr verilməklə yanaşı, həmçinin aikido idman növü üzrə nümunəvi çıxışlar nümayiş olunub. Seminar başa çatdıqdan sonra Ramin Məmmədzadə və Stiven Siqal arasında danışıqlar olub. Danışıqlar zamanı Hollivud ulduzunun gələn il Azərbaycanda aikido üzrə ustad dərsləri keçməsi barədə razılıq əldə olunub.

Stiven Siqalın Azərbaycandakı nümayəndəsi olan Ramin Məmmədzadə tədbir haqqında "Olimpiya dünyası" qəzetinə məlumat verərək tanınmış döyüş ustasının ölkəmizdə ikigünlük ustad dərsləri keçəcəyini qeyd edib. "Moskvada təşkil olunan tədbir sayca ikinci Budo festivalı idi. Ötən il keçirilən festivalda 4 nəfərlik heyətlə təmsil olunmuşduq. Builki festivalda isə ölkəmizi yalnız mən təmsil edirdim. Festival çərçivəsində iştirakçılara budo haqqında məlumatlar verildi, həmçinin aikido idman növü üzrə fəndlərin icrası əyani olaraq göstərildi. Tədbirdən sonra Stiven Siqalla danışıqlar apardım. Məlumat üçün qeyd edim ki, bizim dostluq əlaqələrimiz var. Mən həmçinin Stiven Siqalın Azərbaycandakı nümayəndəsiyəm. Seminardan sonra Hollivud aktyorunun Bakıya dəvəti ilə bağlı danışıqlar apardıq. Yəqin ki, biz gələn il onu yenidən Bakıda görəcəyik. Stiven Siqalın paytaxtımızda ikigünlük ustad dərsləri keçəcəyi gözlənilir. İnanıram ki, bu tədbir yeniyetmə və gənc idmançılarımızda böyük ruh yüksəkliyi yaratmaqla yanaşı, azərbaycanlı məşqçilər və idmançılar üçün də faydalı olacaq", - deyə Ramin Məmmədzadə bildirib.

Məlumat üçün qeyd edək ki, tanınmış Hollivud ulduzu Stiven Siqal dəfələrlə Bakıda qonaq olub.

## FİA-dan yanlış qərar

"Sudzuka" avtodromunda Formula 1 Yaponiya Qran-Prisi keçirilib. Yürüş başa çatanda "Ferrari"nin pilotu Şarl Lekler 15 saniyə cərimələnib.



Yekun vaxtına 5 saniyəni birinci dövrədə "Red Bull"un pilotu Maks Ferstappenlə insidentə görə aləvə ediblər. Daha 10 dəqiqə isə Şarla zədələnmiş bolidin pilotajına görə verilib.

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) rəsmi bəyanatında sonuncu qayda pozuntusuna görə cəza reqlamentin 38.3(d) bəndi ilə əsaslandırılıb. Lakin bu bənd 30 saniyə cərimə nəzərdə tutur. Bu isə belə deməyə əsas verir ki, Leklerin cəriməsi daha böyük olmalı idi.

FIA səhvi etiraf edib, lakin bu səhv əslində bir qədər başqa xarakterli olub. "RaceFans" xəbər verir ki, cərimənin mətni düzgün yazılıb, lakin reqlamentin Leklerin cəzalandırılmasına müvafiq olan bəndinin nömrəsi səhv yazılıb.

Xatırladaq ki, Şarl cəzaya görə yekun protokolda altıncı yerdən yeddinci yerə düşüb.

## Alonso şərtlərini açıqlayıb

"Benetton" və "Reno"nun sabiq rəhbəri Flavio Briatore ikiqat dünya çempionu Fernando Alonsonun Formula 1-ə hansı şərtlərlə qayıda biləcəyindən danışıb. Alonso yalnız üç əsas komandanın birindən təklif alacağı təqdirdə qayıda bilər.

Briatore belə deyib: "Alonsonun qayıdışı? Mən onunla bu barədə danışmışam.



Fernando yalnız "Ferrari", "Mercedes", yaxud "Red Bull"dan təklif alacağı təqdirdə qayıda bilər. Əks halda bunun heç bir mənası yoxdur".

Briatore vurğulayıb ki, Alonso ilə "Ferrari" 2014-cü ildə müqaviləni pozmalarına baxmayaraq, pilot nəzəri baxımdan hətta bu komandaya da qayıda bilər.

O deyib: "Əgər onlar qalib gəlmək istəyirlərsə, hər şey ola bilər".

Alonsonun Formula 1-də çıxış etdiyi sonuncu komanda "Maklaren" olub. O, bu komandanı 2018-ci il mövsümündən sonra tərk edib.

## Formula 1 və Mayami prinsipial razılıq əldə ediblər

Formula 1 rəhbərliyi Mayamidə dünya çempionatının Qran-Pri mərhələsinin keçirilməsi barədə Florida ştatının ən iri şəhərinin nümayəndələri ilə razılığa gələ bilib.

Kurort şəhərində Formula 1-in birinci mərhələsi 2021-ci ilin mayında keçiriləcək. Qran-Pri yerli NFL komandasının "Hard Rock Stadium" arenası ətrafında təşkil ediləcək. Daha əvvəl nəzərdə tutulmuşdu ki, yürüş Mayaminin şəhər trasında keçiriləcək, lakin bu təşəbbüs şəhərin hakimiyyət orqanlarının sərt müqaviməti ilə rastlaşıb.

Hər necə olsa da 2021-ci ildə ABŞ-da Formula 1-in iki mərhələsi keçiriləcək. Xatırladaq ki, onların biri Texas ştatının Ostin şəhərində olacaq.

Sorğu

# Gənc nəsil idmanı öz sevimli məşğuliyyətinə çevirib

***Yaşadığımız cəmiyyətdə idmana, bədən tərbiyəsinə və Olimpiya Hərəkatına olan maraq günü-gündən artır. Bu da dövlət tərəfindən bu sahəyə göstərilən qayğının təcəssümüdür. Sevindirici haldır ki, yetişməkdə olan gənc nəsil pis vərdişlərdən uzaqlaşır və idmanı öz sevimli məşğuliyyətinə çevirir. Şagird və tələbələr təhsillə yanaşı idmanda da fərqlənməyə çalışırlar. Bu isə uşaq və yeniyetmələrin fiziki və mənəvi tərbiyəsinin formalaşmasına xidmət edir.***

***"Olimpiya dünyası" qəzeti vaxtaşırı bu və ya digər mövzularda tələbələr arasında sorğu keçirərək, onların fikirlərini oxucularına çatdırır. Bu dəfə həmin sorğunu qəzetimizdə təcrübə keçən tələbə jurnalistlərə həvalə etdik. Jurnalistikada ilk addımları atan tələbə həmkarlarımız təhsil aldıqları Bakı Dövlət Universitetinin tələbələri arasında sorğu keçirdilər. Respondentlərin idmanın faydası, sağlamlıq üçün necə əhəmiyyətli olduğunu əks etdirən fikirlərini oxucularımıza təqdim edirik.***

*Fidan Məmmədova (Jurnalistika fakültəsi, II kurs)*



\- Mən belə düşünürəm ki, sağlam həyat tərzi üçün təmiz havada gəzinti və fiziki hərəkətlərə üstünlük vermək lazımdır. Yaxşı olar ki, hər ikisi birbirilə vəhdət təşkil etsin. Rəqslə məşğul olmaq da sağlamlıq üçün məsləhətlidir. Mən rəqs qrupunda çıxış etdiyim üçün bu qənaətə gəlmişəm. Lakin əksər gənclər rəqsin mahiyyətini və faydasını elə də başa düşmür. Bu sahəyə həvəs əsas şərtdir. Amma sağlamlıq üçün gələnlər də var. Sağlamlığımız üçün faydalıdırsa, deməli, bu da idmandır. Qadın və kişilər üçün xarakterik olan fərqli idman növləri var. Hər iki cinsin nümayəndələri uyğun olan idmanla məşğul olsalar, nəticə daha qənaətbəxş olar.

*Bəhram Nadirov (Jurnalistika fakültəsi, II kurs)*

\- Sağlam həyat tərzi üçün qida rasionuna və rejimə ciddi riayət etmək lazımdır. İdman zərərli vərdişlərdən uzaq olmaq üçün ən etibarlı vasitədir. Bu gün gənc nəsil güləş, boks, futbol və s. kimi idman növlərinə maraq göstərir. Mütəxəssislərin fikrincə, idman insanın sağlam bədənə nail olmasına kömək edir. Bundan əlavə, sağlam həyat tərzinin formalaşmasında da idmanın köməyi var.



*Nuray Məmmədzadə (Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, I kurs):*



\- Hər gün vaxtında oyanmalı, idman etməli, yemək yeməli və mənəvi ruhumuzu qidalandırmalıyıq.

Təhsil aldığım fakültədə tələbə yoldaşlarımın daha çox futbola və üzgüçülüyə meyl göstərdiklərini görürəm. İdmanın bu növləri həm oğlanlar, həm də qızlar üçün xarakterikdir. Necə deyərlər, insanın öz ideal formasını saxlamasında idmanın rolu danılmazdır.

*Şəmistan Yusifov (Jurnalistika fakültəsi, II kurs):*

\- Sağlam həyat tərzi üçün yuxu rejiminə fikir vermək lazımdır. Çalışıb axşam tez yatıb, səhər tez oyanmalıyıq. Hər bir kəs bacardığı qədər səhərlər idmanla məşğul olmalıdır. Gün ərzində qidalanmaya nəzarət etməli, spirtli və qazlı içkilərdən uzaq durmaq lazımdır. Qadınların idmana olan münasibəti son illərdə artıb. Oğlanlarla birlikdə əks cinsin nümayəndələri də idmanı öz sevimli məşğuliyyətlərinə çeviriblər. Lakin elə idman növləri də var ki, qadının xarakterini, bədən formasını dəyişir. Amma, məncə, xanımların idmanla məşğul olması yaxşı haldır.



*Qumral Əliyeva (Jurnalistika fakültəsi, II kurs):*

\- Məncə, ən başlıcası qidalanma ilə əlaqədardır. Fiziki hərəkətlər, idman təmrinləri də sağlamlığın bel sütunudur. Peşəkar idmana gedən yolun başlanğıcı buradan başlayır. Qadınların idmana olan marağı son illərdə xeyli yüksəlib. Qadınlar çalışıb hər bir hərəkətin icrasında ehtiyatı qoruya biləsən. İdmanla kobudlaşacaq dərəcədə məşğul olmaq lazım deyil. Xüsusilə də bu amil zərif cins nümayəndələrinə şamil olunur. Ancaq ideal bədən quruluşuna sahib olmaq, formada qalmaq üçün idman vacibdir.



*İlqar Musayev (Jurnalistika fakültəsi, II kurs)*

\- Məncə, sağlam həyat tərzi gündəlik həyatımızdan başlayır. Hər səhər idman etməli, fiziki hərəkətləri böyük həvəslə yerinə yetirməliyik. Təhsil aldığım fakültədə oğlanlarla yanaşı qızların da idmana, xüsusilə futbola marağı böyükdür. Onlar bizim fakültələrarası yarışlarda azarkeş qismində iştirak edib, bu marağı hamıya sübut etdilər. Nəticədə 8 il universitet çempionatında qrup mərhələsini keçə bilməyən "Jurnalistika" komandası keçən il bu uğura nail oldu. Çoxları düşünür ki, idman ancaq oğlanlar üçündür. Məncə, bu düzgün yanaşma deyil. Xanımlar idmanla məşğul olaraq öz bədən quruluşlarını formada saxlayır, həmçinin sağlamlıqlarını qorumuş olurlar.



*Röya Vahabova (Jurnalistika fakültəsi, II kurs)*

\- Sağlam həyat tərzini təmin etmək üçün ilk növbədə sağlam qidalanmaq, idmanla müntəzəm məşğul olmaq gərəkdir. Çalışıb stresi özümüzdən uzaq tutmalıyıq. Çünki stress də sağlamlığımıza mənfi təsir göstərir. Təhsil aldığım fakültədə idmana münasibət yaxşıdır. Məsələn, futbol yarışları keçirilir. Fakültəmiz də bu yarışlarda uğurlar qazanıb. Həmçinin fakültəmizdə rəqslə məşğul olanlar da var. Rəqsi də bir idman növü kimi göstərmək olar. Şübhəsiz, idman ilk növbədə sağlamlıq üçündür."



*Əsmər Mirzəli (Sosial elmlər və psixologiya fakültəsi, III kurs)*



\- Yuxu, qidalanma və fiziki hərəkətlər sağlamlığın əsasını təşkil edir. Təhsil aldığım fakültədə qrup yoldaşlarım daha çox futbol və üzgüçülüklə məşğul olurlar. Düşünürəm ki, insanın sağlam və ideal bədən quruluşuna sahib olmasında idman böyük köməkçidir.

***Sorğunu hazırladılar:***
***Zərintac Məmmədova,***
***Könül Hüseynova***
*BDU jurnalistika fakültəsinin tələbələri*

# FUTBOL

## “Neftçi” üç xalla ikinci pilləyə yüksəldi

Azərbaycan Premyer Liqasında VIII tura yekun vurulub.

İlk oyun günündə “Qəbələ” “Qarabağ”la, “Keşlə” isə “Sabah”la üz-üzə gəlib. Həmin görüşlərdə komandalar hərəyə bir xalla kifayətləniblər. UEFA Avropa Liqasında APOEL-lə üz-üzə gələcək “Qarabağ” Qəbələ səfərində bu dəfə qələbə əldə edə bilməyib. Ertəsi gün keçirilən görüşdə isə heç-heçə qeyd alınmayıb. Bu turda “Neftçi” doğma azakeşlər önündə “Zirə”dən üç xal ala bilib. Bunu nla da “ağ-qaralar” turnir cədvəlində 2-ci pilləyə yüksəlib.



“Səbail” isə öz meydanında “Sumqayıt”ın müqavimətini qıra bilməyib. Bununla da paytaxt təmsilçiləri ardıcıl üçüncü məğlubiyyətlə üzləşiblər.

### Azərbaycan Premyer Liqası

#### VIII tur

**19 oktyabr (şənbə)**

**“Qəbələ” - “Qarabağ” - 1:1**

**Qollar:** Qismət Alıyev, 3 - İsmayıl İbrahimli, 9

***Stadion: Qəbələ şəhər stadionu***

**“Keşlə” - “Sabah” - 1:1**

**Qollar:** Vüsal İsgəndərli, 16 - Hendrik Ekşteyn, 90+1

***Stadion: “ASCO Arena”***

**20 oktyabr (bazar)**

**“Neftçi” - “Zirə” - 3:0**

**Qollar:** Dario Frederiko, 27; Baqali Dabo, 46; Stiven Monroz, 76

***Stadion: “Bakcell Arena”***

**“Səbail” - “Sumqayıt” - 0:2**

**Qollar:** Peyman Babayi, 47, Elvin Cəfərquliyev, 90+3

***Stadion: “ASCO Arena”***

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Qarabağ | 8 | 7 | 1 | 0 | 18-22 | 22 |
| 2. Neftçi | 8 | 4 | 2 | 2 | 11-6 | 14 |
| 3. Keşlə | 8 | 3 | 3 | 2 | 9-4 | 12 |
| 4. Səbail | 8 | 3 | 1 | 4 | 8-13 | 10 |
| 5. Sumqayıt | 8 | 3 | 1 | 4 | 7-9 | 10 |
| 6. Zirə | 8 | 2 | 2 | 4 | 6-12 | 8 |
| 7. Qəbələ | 8 | 1 | 3 | 4 | 4-15 | 6 |
| 8. Sabah | 8 | 1 | 3 | 4 | 6-8 | 6 |

**Bombardirlər:** Lorenzo Frutos (“Keşlə”), İsmayıl İbrahimli (“Qarabağ”), Stiven Monroz (“Neftçi”) - 4 qol.

## ÇL: “Real”, “Tottenhem”, “İnter” və “Liverpul” qələbə qazanmasa...

### *İtirilən bir xal belə bütün ümidləri puç edə bilər*

Bu gün UEFA Çempionlar Liqasının qrup mərhələsində 3-cü turun oyunlarına start veriləcək. Bu mərhələdə keçiriləcək qarşılaşmaların hər birinin nəticəsi qrupdakı vəziyyətə təsir edəcək. Belə ki, İstanbula səfər edəcək Madrid “Real”ı “Qalatasaray”la görüşdə qələbə qazanmağa çalışacaq. Əks halda turnirin ən çox qalibi olan “Kral klubu” A qrupunda növbəti mərhələyə çıxmaq şansını heçə endirəcək. B qrupunda mübarizə aparan “Tottenhem” klubu üçün də eyni sözü demək olar. Ötən tur “Bavariya”ya böyük hesabla (2:7) məğlub olan Maurisio Poçettinonun komandası doğma azarkeşlər önündə qələbə qazanmalıdır. Ukraynada yaxşı təsir bağışlayır. D qrupunda “Atletiko” Leverkuzen “Bayer”ini qonaq edəcək. Almaniya təmsilçisinin bu il uğursuz çıxışına baxmayaraq, ispanlar həmin görüşdə favorit görünmürlər. Qrupun digər matçında “Yuventus” “Lokomotiv”lə üz-üzə gələcək. Həmin matçda Turin təmsilçisinin qələbəsini düşünənlər, bir qədər yanıla bilərlər. “Dəmiryolçular” səfərdə oynamalarına baxmayaraq, “Qoca Sinyora”dan xal almaq əzmindədirlər.

Sabah keçiriləcək digər qarşılaşmalarda da gözlənilməz nəticələrin şahidi ola bilərik. Oktyabrın 23-də keçiriləcək görüşlərdə daha çox “İnter” -



keçiriləcək “Şaxtyor” - “Dinamo” Zaqreb qarşılaşmasında C qrupunda ikinci vəsiqənin sahibi müəyyənləşə bilər. Lakin qrupun digər görüşündə aktivində 6 xalı olan “Mançester Siti”ni “Atalanta” ilə gərgin görüş gözləyir. Gərgin ona görə ki, İtaliya klubu ÇL-də yeganə klublardandır ki, səfərdə daha “Borussiya”, “Leyptsiq” - “Zenit” və “Ayaks” - “Çelsi” qarşılaşmaları azarkeşlərin maraqla gözlədiyi oyunlar arasındadır. Lakin unutmaq olmaz ki, qitənin əsas klub turniri olan Çempionlar Liqasında hər bir matç gözlənilməz nəticə ilə başa çatır. Çünki bu yarışda təsadüfi rəqiblər yer almayıb.

### *Çempionlar Liqasının təqvimi (III tur)*

**22 oktyabr**

**A qrupu**

23:00. Qalatasaray (Türkiyə) - Real (İspaniya)
23:00 Brügge (Belçika) - PSJ (Fransa)

**B qrupu**

23:00. Olimpiakos (Yunanıstan) - Bavariya (Almaniya)
23:00. Tottenhem (İngiltərə) - Srvena Zvezda (Serbiya)

**C qrupu**

20:55. Şaxtyor (Ukrayna) - Dinamo (Xorvatiya)
23:00. Mançester Siti (İngiltərə) - Atalanta (İtaliya)

**D qrupu**

20:55. Atletiko (İspaniya) - Bayer (Almaniya)
23:00. Yuventus (İtaliya) - Lokomotiv (Rusiya)

**23 oktyabr**

**E qrupu**

23:00. Zalsburq (Avstriya) - Napoli (İtaliya)
23:00. Genk (Belçika) - Liverpul (İngiltərə)

**F qrupu**

23:00. İnter (İtaliya) - Borussiya (Almaniya)
23:00. Slaviya (Çexiya) - Barselona (İspaniya)

**G qrupu**

20:55. Leyptsiq (Almaniya) - Zenit (Rusiya)
23:00. Benfika (Portuqaliya) - Lion (Fransa)

**H qrupu**

20:55. Ayaks (Hollandiya) - Çelsi (İngiltərə)
23:00. Lill (Fransa) - Valensiya (İspaniya)

## UEFA-nın yeni klub turnirindən narahatlıq var

Avropa Peşəkar Futbol Liqaları Assosiasiyasının prezidenti Lars-Krister Olsson 2021-ci ildən keçirilməyə başlayacaq UEFA-nın Konfrans Liqası ilə bağlı fikirlərini bildirib. O deyib ki, həmin




yarışın əhəmiyyətinin az olacağı riski ilə bağlı klubların narahatlığı var: “Bu zaman onlar stadionu doldura bilməyəcək və az gəlir götürəcəklərini deyirlər. Ona görə də, əgər klublar üçüncü avrokuboka görə pul itirməyə başlasa, bu, heç kimi qane etməyəcək. Klublar bununla əlaqədar narahatlıqlarını bildiriblər. Biz indi öyrənirik ki, bu, əsaslıdır, ya yox”.

Xatırladaq ki, Azərbaycan UEFA reytinqində ilk 15-liyə düşmədiyi üçün 2021-ci ildən avrokuboklara 1 komanda ilə Çempionlar Liqası, 3 komanda ilə Konfrans Liqasında mübarizəyə başlayacaq və startda Avroliqada təmsilçisi olmayacaq. Yalnız ÇL-də təsnifat mərhələsində uduzacağı halda Azərbaycan çempionu UEFA turnirlərində mübarizəni Avropa Liqasında oynamaqla davam etdirəcək.

## FİFA referisi üçün yeni təyinat

Çimərlik futbolu üzrə FIFA referisi İnqilab Məmmədov yeni təyinat alıb. İ.Məmmədov Türkiyənin Alanya şəhərində keçiriləcək klublararası dünya çempionatının oyunlarını idarə edəcək. Dünya çempionatı oktyabrın 21-dən 27-dək keçiriləcək.

## “Qara qartallar”ın yeni sahibi müəyyənləşdi

“Beşiktaş”ın yeni prezidenti müəyyənləşib. Əhməd Nur Çebi İstanbul təmsilçisinin yeni prezidenti seçilib. O, prezident seçkisində digər namizədlər Serdal Adalı və Hürser Tekinoktayı səsvermədə geridə qoyub. Çebi 5009, Adalı 2983, Tekinoktay isə cəmi 537 səs toplaya bilib. Beləliklə, Əhməd Nur Çebi “Beşiktaş” tarixinin 34-cü prezidenti olub. O, qarşıdakı 2.5 il ərzində klubun başında olacaq. Qeyd edək ki, klubun bundan əvvəlki prezidenti Fikrət Orman idi. 2012-ci ildən İstanbul təmsilçisinə rəhbərlik edən Orman oktyabrda istefa vermişdi.

## İngiltərə klubunun baş məşqçisi cəzalandırıldı

İngiltərənin “Uimbldon” klubunun baş məşqçisi Uolli Dauns




cəzalandırılıb. İngiltərə Futbol Assosiasiyası mütəxəssisi 4 həftəlik diskvalifikasiya edib.

Buna 58 yaşlı mütəxəssisin totalizatora pul qoyuluşu səbəb olub. O, 2013-14-cü illərdə 5, bu il isə 3 dəfə proqnoz verib.

U.Dauns 3 min funt sterlinq pul cəriməsi də ödəməlidir. Onun cəzası isə noyabrın 14-də başa çatacaq. Klub rəhbərliyi bundan sonra mütəxəssisin müqəddəratı barədə qərarını açıqlamayıb.

## Çin yeganə namizəddir

Futbol üzrə klublararası dünya çempionatı 2021-ci ildə Çində keçirilə bilər. Asiya təmsilçisi bununla bağlı namizədliyini irəli sürən yeganə ölkədir. Dünya çempionatının ev sahibi FİFA-nın oktyabrın 24-də Çinin Şanxay şəhərində keçiriləcək iclasında seçilməlidir. 2021-ci ildən etibarən çempionat dörd ildən bir, 24 komandanın iştirakı ilə baş tutacaq. Qeyd edək ki, əvvəlki formatla keçiriləcək son iki yarış 2019 və 2020-ci illərdə Qətərdə baş tutacaq.

## “El Klasiko”nun keçirilməsi sual altındadır

La Liqanın 10-cu turunda keçiriləcək “Barselona” - “Real” matçının vaxtı hələ də dəqiqləşməyib. Kataloniyada baş verən etiraz aksiyaları səbəbindən oktyabrın 26-ı oynanılacaq matç



təxirə salınsa da, yeni vaxtla bağlı La Liqa rəhbərliyi ilə klublar arasında fikir ayrılığı yaranıb. “Barselona” və “Real” görüşün dekabrın 18-i keçirilməsini istəsə də, La Liqa rəhbərliyi buna narazıdır. Qurum eyni tarixdə İspaniya kubokunda görüşlər olacağı üçün “El Klasiko”nun dekabrın 4-ü oynanılmasını istəyir. La Liqa rəhbərliyi hesab edir ki, “Barselona” və “Real” arasında matç dekabrın 18-i oynanılacağı təqdirdə, kubokda oynayacaq digər klublara maddi ziyan dəyə bilər.

Klublar və La Liqa arasında fikir ayrılığının yaxın günlərdə həll olunacağı gözlənilir.

# Dünya idmanı





*Üfüqi*

Akrobatika gimnastikasında və ağırlıqqaldırmada idmançıların əllərinə vurduğu tozun tərkibi. 3. Estoniya çempionatında çıxış edən klub. 4. İspaniya sequndasının təmsilçisi. 7. Minskdə keçirilən ikinci Avropa Oyunlarında kata yarışlarının bürünc mükafatçısı....Heydərov. 8. Bakı Şəhər Halqasının Marketinq və Kommunikasiya şöbəsinin rəhbəri Nigar...9. Rinq və əlcək. 11. Altı heyət üzvündən ibarət qış idman növü. 13. Dünya şöhrətli idman karikaturaçısı. 14. Ümumdünya...Agentliyi.

*Şaquli*

"Böyük Dəbilqə" yarışlarının 20 qat qalibi. 5. Şahmatda fiqur. 6. Tokio-2020 Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcək idmançı. 9. Futbol ayaqqabısı. 10. Öz qapısına qol vurduğu üçün qətlə yetirilən futbolçu.12. Danimarka millisinin qapıçısı olan dahi fizik. 13. İtaliyalı ulduz Paolo Çezare....

## Amerika Kubokunun loqosu hazırdır

Argentina və Kolumbiyanın ev sahibliyi edəcəyi Amerika Kuboku-2020-nin rəsmi loqosu təqdim olunub. Loqoda ev sahibliyi edəcək ölkələrin bayraqlarının rəngləri əks olunub. Loqo futbol azarkeşlərinin birliyini, yaşıl meydançanı və günəşi simvolizə edir. Xatırladaq ki, Amerika Kubokun gələn il iyunun 12-dən iyulun 12-dək keçiriləcək. Çempionata ilk dəfə eyni vaxtda iki ölkə ev sahibliyi edəcək.Yarışlarda 12 komanda qələbə uğrunda mübarizə aparacaq. Qeyd edək ki, Amerika Kubokunun hazırkı qalibi Braziliya komandasıdır.

## "Edqarla döyüşməyin mənası yoxdur"

KİV-də yayılan Frenki Edqar və Konor Makqreqor döyüşü barəsində xəbərlər bir mənalı qarşılanmayıb. Belə ki, UFC-nin prezidenti Deyna Uayt Frenki Edqar və Konor Makqreqor arasında döyüşün mənasız olduğunu bildirib.



"Konor-Meyvezer döyüşündən sonra bildirmişdim ki, irlandiyalı qazandığı pulu görüb, bir daha döyüşmək istəməyəcək. Lakin sonradan o, Həbiblə üz-üzə gəldi. Bilirəm, Konor döyüşməyi sevir. Edqarla döyüşməyinsə mənası yoxdur. O, Aljamain Sterlinq ilə görüşməli idi, lakin o, zədəlidir. Konora demişəm ki, özünə layiqli bir rəqib seçsin", - deyə D.Uayt bildirib.

## Riberi: "Təkcə görkəmimdən narazıyam"



Bu ildən "Fiorentina"nın heyətində çıxış edən fransalı futbolçu Frenk Riberi FİFA-20 simulyatorundakı prototipindən narazı qalıb. Bu barədə rəsmi "Tvitter" səhifəsində oyun istehsalçılarına məktub yazıb. "Təşəkkür edirəm ki, mənim göstəricilərimi lazımi səviyyədə simulyatorda əks etdirmisiniz. Lakin təkcə öz görkəmimdən narazıyam. Doğrusunu desəm, övladlarımla FİFA-20 oynayanda, özümü tanımadım. Bu həm gülməlidir, həm də...", - deyə Riberi bildirib.

## Qeyri-adi razılaşma: 10 kq doşab və 1 illik müqavilə

Türkiyə futbolunda daha bir maraqlı transfer həyata keçirilib. Türkiyənin həvəskarlar liqasında mübarizə aparan "Aladağ" klubu Oktay Karakanı 10 kq doşab müqabilində heyətə cəlb edib. Belə ki, ciddi maliyyə problemləri yaşayan klub 35 yaşlı yarımmüdafiəçinin transferi üçün futbolçuya təmsil etdikləri Adanada istehsal olunan ardıc doşabı təklif edib. Qarşı tərəf bu təklifi müsbət qarşılayıb. Nəticədə futbolçu ilə klub arasında 1 illik müqavilə rəsmiləşib. Təqdimat mərasimində futbolçuya çatacaq 10 kq doşab da təqdim olunub.



## Əfsanəvi futbolçunun göz yaşları



Bolqarıstan millisinin sabiq futbolçusu Xristo Stoiçkov UEFA-nı ölkəsinin klublarını avrokuboklardan kənarlaşdırmağa səsləyib.

53 yaşlı veteran hücumçu "L Equipe" nəşrinə açıqlamasında AVRO-2020-nin seçmə mərhələsində Bolqarıstanın evdə İngiltərəyə 0:6 hesabı ilə uduzduğu matçda yerli azarkeşlərin irqçi davranışlarından xəcalət çəkdiyini bildirib. Onun sözlərinə görə, stadionları bağlamaq, azarkeşsiz oynamaq lazımdır: "Bəlkə də, daha ciddi cəza verilməsinin vaxtı gəldi. İngiltərə bundan keçib. Bolqarıstan klublarını 5 il müddətinə beynəlxalq yarışlardan kənarlaşdırmaq lazımdır. Bu, hamının sakitləşməsinə kömək edərdi".

Stoiçkov ABŞ-ın TUDN telekanalının efirində isə bolqarıstanlı azarkeşlərin irqçilik davranışlarını şərh edərkən ağlayıb.


## olimpnews.az - sizin saytınız






Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19